# Hayd Park

**Bəxtiyar Vahabzadə**

Londonda "Hayad Park" deyilən bir bağda hər kəs istədiyini danışmaq, hətta hökuməti ittiham etmək hüququna malikdir.

Hayd park!
Bu bağda azaddır insan.
Azaddır məramı, fikri hər kəsin.
Ey qəlbi yaralı, fikri pərişan,
Qəlbindən keçəni qorxma, də gəlsin.

Danış bildiyini…
Qoruq-qadaq yox

Burda nə düz sözə, nə yalan sözə.
Burda fikir azad, burda söz açıq,
Yalan doğru kimi dürtülmür gözə.
Bu parkdan kənarda, bağdan uzaqda
Dolaşır ölkəni müdhiş yalanlar.
Anzaq həqiqəti yalnız bu bağda
Deməyə iznin var, ixtiyarın var.

Niyə həqiqətin qaradır üzü?
Ali məclislərdən niyə qovulmuş?
Sözdə hakimsə də həqiqət özü
Yalan qarşısında müttəhim olmuş.

Boğurlar, düşünüb anlayanları.
Xalq yenə əsrlik qeylü-qalında.
Gerçəyin yerinə ağ yalanları
Gördük həqiqətin pyedəstalında.

"Azadlıq məndədir" – söyləyən ölkə,
Ölkələr dağıdıb qana batmısan.
İnsan hüququndan dərs deyən ölkə,
Haqqı bağ küncünə niyə atmısın?

İzdiham önündə danışır biri,
Həqiqət çağlayır məğrur səsində.
Vurur ürəyinin döyüntüləri
Onun hər sözündə, hər kəlməsində.

Qəlblərə nur kimi çilənir səsi,
Sözləri zülmətdə çıraq yandırır.
İnsan arzusunun dilə gəlməsi
Burda daşları da işıqlandırır.

Parkın hər tərəfi yamyaşıl çəmən,
Qışın oğlan çağı - burda ilk bahar.
Haqqın, həqiətin gül nəfəsindən
Elə bil boy atır burda ağaclar.

Parkdan kənardasa əyri oldu düz,
Sözdən paltar biçdi yalan gerçəyə.
Gülləmi, bombamı, atəşmi haqq söz,
De, niyə qorxurlar düz sözdən, niyə?

Ədalət susanda, haqq boğulanda
Yalan zəfər çalır,
Gerçək mat qalır.
Qanun düşüncəyə qalıb olanda
Haqq söz barıt olur, qalıb yırtılır.

Qalıbı qoruyub saxlamaq üçün
Sözü “Hayd park” da dustaq etdilər.
Bu gün deyilsə də, sabah, başqa gün
Yalan həqiqətdən bir imdad dilər.

Parkın dözrəsində dəmir çəpər var,
Haqq sözün önünü kəsir hasarlar.
Kaş bu park böyüyə, hasar dağıla,
Dünya başdan-başa “Hayd park” ola!

Oktyabr, 1978, London.

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Nərgiz Abadi
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: yanvar, 2004